

*15 sentyabr 1918-ci ildə Qafqaz İslam ordusu Bakını tarixi düşmənlərimizdən azad etdi*

# Ənvər Paşanın son məktubu

**Sevgili Naciyə!**

**Sənin yazdığın son məktubu aldım.**

Onu daima qəlbimin üstündə daşıyacağam. Sənin o sevimli, dadlı üzünü, hər nə qədər indi görmək mümkün deyilsə də, nazik barmaqlarının bu məktubun kəlmə və sətirlərini necə düzdüyünü xəyal edirəm. Bunlar bir zaman mənim saçlarımı darayan, yenə o nazik barmaqlar deyilmi idi?! Elə isə mən indi səndən çox uzaqlarda bir qan və atəş dəryasında qəhrəmanca çarpışmaqdayam. Bu isə sənin incə qəlbini üzməkdədir.

Sən məktubunda məndən şikayətlənərək qılınc və hərbi sevdiyim qədər heç bir şeyi sevmədiyimi yazırsan. Söylədiyin yalan deyildir. Mən heç bir şeyi deyil, sadəcə, səni sevirəm, deyə bilmərəm. Desəm də yalan olar. Fəqət, sən də bilirsən ki, mənim haqqımda yanlış propaqandalar edən bir qisim bədbəxtlərin iddia etdikləri kimi, mən də bu uzaq diyarlara sərvət axtarmaq, zəngin olmaq və ya öz hakimiyyətimi qurmaq üçün gəlmədim. Gerçəkdə məni səndən qoparıb buralara qədər sürükləyən Cənabi haqqın çiyinlərimə yüklədiyi müqəddəs bir vəzifədir.

Bu, cihad vəzifəsidir. Bu elə vəzifədir ki, ona niyyət edənlərə belə ilahi, Cənnətə girməyə haqq qazandırır. Allaha and olsun ki, mən, sadəcə, cihada niyyətlə yetmirəm, gerçək mənada cihad edirəm. Hər nə qədər səndən ayrı qalsam da, sənin sevginlə çarpan qəlbimi param-parça etsəm də, böylə böyük bir imtahan verdiyimə görə xoşbəxtəm.

(Davamı 3-cü səhifədə)

Ədəbiyyat qəzeti

# Ənvər Paşanın son məktubu

## Gerçəkdə məni səndən qoparıb buralara qədər sürükləyən Cənabi haqqın çiyinlərimə yüklədiyi müqəddəs bir vəzifədir

(Əvvəli 1-ci səhifədə)



Bu fani, dünyəvi şeylər içində, sənin sevgindən başqa mənim iradəmi saran heç bir şey yoxdur. Fəqət, Allaha şükürlər olsun ki, Allah əmrini yerinə yetirməkdə sənə olan sevgimə daha boyun əymədim. Bundan sənin də ayrı bir xoşbəxtlik duymağın gərəkir. Sənin öylə bir həyat yoldaşın var ki, sənə olan eşqini Allaha olan eşqinə fəda edəcək qədər qüvvətli bir imanı vardır.

Hər nə qədər qadınlar üzərində qılıncla cihad etmək borc olunmursa da, onlar özlərini bu ilahi borcdan qurtarmazlar. Sənin cihad etməyin isə bütün dünyəvi şeylərdən üz çevirib. Allaha yönəlməyin, onu sevməyindir. Bir də, mənim cihad əzmimin daha da qüvvətlənməsinə yardımçı olmağındır.

Və bir kərə daha söyləyirəm! Sakın, sən ərinə bu hərb meydanlarında sağ-salamat qurtulub gəlməyi üçün dua etməyəsən. Bu, bir növ özünü düşünmək olur ki, Allah da bunlar razı olmaz. Sən Allaha öncə ərinin etdiyi hizmətləri qəbul buyurması üçün dua et ki, müzəffər bir komandan olaraq dönsün və ya şəhidlik mərtəbəsinə layiq olsun.

Sevgili Naciyə! Bir qədər düşün, bu baş öylə ki, sənin hər zaman çox yarışıqlı dediyin bu baş, bu vücud öylə ki, göz önündə mələklər qədər məsum və bütün əsgərlərdən daha heybətli bir vücud qoparılmış, qanlar içərisində şəhid olmuş... bundan daha böyük nailiyyət varmı?

Həyat qısa, ölüm isə taleyimiz. Elə isə ölümdən qorxmaq niyə, bir kimsə yatağında ölməkdənsə, şəhid olaraq ölməyə niyə qeyrət etməsin? Halbuki şəhidlik mütləq ölüm deyildir. O yeni bir həyata, həm də əbədi bir həyata qovuşmaqdır.

Bu arada mənim səndən ilk istəyim, cocuqlarımın da mənim əsgərlik məsləkimdə yetişdirilməsi və onların da vaxtı, zamanı gəlincə islama xidmət üçün hərb meydanlarına göndərilməsidir.

Yaxşı, sevgilim, artıq Sizi Allaha əmanət deyirəm. Allah bilir, qəlbimin içindən qaynayıb gələn bir səs, sənə bir kərə daha böylə bir məktub yazmayacağımı söyləməkdədir. Kim bilir, bəlkə mən həmin səhər, şəhidlər zümrəsinə qatılacağam. Bax! Mənim ölümümə sakın üzülməyəsən, səbrli ol! Hələ bir düşün, mənim şəhid olmağım sənin üçün bir iftixar qaynağı olacaqdır.

> **Bu fani, dünyəvi şeylər içində, sənin sevgindən başqa mənim iradəmi saran heç bir şey yoxdur.**

Naciyə! İndi, səndən ayrılmaq zamanı gəldi, bu anda sanki səni qucaqlayıram. Allah nəsib edərsə, səninlə bir daha heç ayrılmamaq üzrə Cənnəti alada görüşəcəyik, haydı, Allah əmanətində!